HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 iyul 2017-ci il
№014 (52)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## BAKIDA AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ GÖRÜŞÜ KEÇİRİLİB



Bakı-Tbilisi-Qars dəmiryolunun Türkiyə ərazisindən keçən sahəsində tikinti 2017-ci ilin sonunadək başa çatacaq. Bu barədə Türkiyənin gömrük və ticarət naziri Bülənt Tüfenkçi üçtərəfli Azərbaycan-Gürcüstan-Türkiyə görüşündə bəyan edib.

Onun sözlərinə görə, əvvəllər layihənin gerçəkləşdirilməsilə bağlı müəyyən problemlər mövcud olsa da, artıq onlar aradan qaldırılıb, gücləndirilmiş iş rejiminə keçilib və BTQ-nin tikintisində işlərin 85 faizi başa çatdırılıb.

Gürcüstan baş nazirinin birinci müavini, maliyyə naziri Dmitri Kumsişvili hər üç ölkənin gömrük orqanları qarşısında duran əsas məsələlərdən birinin regionda ticarətin genişləndirilməsi olduğunu vurğulayıb.

Xatırladaq ki, iyulun 19-da Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə gömrük və sərhəd xidmətləri nümayəndələrinin görüşü keçirilib. Görüşdə iki sənəd – ölkələr arasında gömrük məsələlərinə dair üçtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında birgə bəyannamə, habelə Türkiyə və Azərbaycan arasında avtomobil nəqliyyatı ilə tranzit daşınmalarına dair elektron informasiya mübadiləsinin yaradılması haqqında saziş imzalanıb.

Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına görə, ilin birinci yarısında Türkiyə ilə mal dövriyyəsi 1,2 milyard dollar, Gürcüstanla 270,35 milyon dollar təşkil edib. Hər iki ölkə Azərbaycanın əsas xarici ticarət tərəfdaşları sırasına daxildir.

## TİBB FAKÜLTƏLƏRİNİN TƏLƏBƏLƏRİ TƏCRÜBƏ ÜÇÜN TÜRKİYƏYƏ YOLA DÜŞÜBLƏR




Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı artıq üç ildir ki, Türkiyənin müxtəlif universitetləri ilə “Gürcüstanlı tibb tələbələrinin Türkiyə gəzintisi və təcrübə layihəsi” adı altında əməkdaşlıq edir. Layihənin adından da bəlli olduğu kimi, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı Gürcüstanın müxtəlif universitetlərinin tibb fakültələrində oxuyan tələbələri təcrübə üçün Türkiyənin fərqli universitetlərinə göndərir.

Bu il də bu layihyədə iştirak etmək üçün təşkilatın ünvanına göndərilən çoxsaylı müraciətləri nəzərə alaraq bir sınaq imtahanı təşkil edilmiş və bu imtahanda müvəffəqiyyət əldə edən və bu layihədən istifadə etməyə haqq qazanan tibb fakültələrinin 30 tələbəsi iyulun 31-də Türkiyənin Bursa şəhərində fəaliyyət göstərən Uludağ Universitetində təcrübə keçmək üçün yola düşüblər.

Xatırladaq ki, layihə 1 ay müddətində, yəni avqustun 1-dən 31-dək davam edəcək.


VERDİYİMİZ TƏRBİYƏ VƏ ONUN NƏTİCƏLƏRİ 2

QUL İLƏ ALLAH ARASINDA OLAN BAĞ - DUA 3

AVROPA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN SON DURUMU 4

İSLAMDA İNSANIN DƏYƏRİ 5

VƏTƏNƏ GÜLLƏ ATMAQ (transalp) 6

GİYA PAÇXATAŞVİLİ – DƏRVİŞ KÖNÜLLÜ ŞAİR 7


## GÜRCÜSTANDA“LAYİQLİ TƏRƏFDAŞ 2017” TƏLİMLƏRİNİN RƏSMİ AÇILIŞI OLUB



İyulun 30-da “Layiqli tərəfdaş 2017” çoxmillətli təlimlərinin rəsmi açılışı olub. Açılış mərasimi Vaziani hərbi aerodromunda baş tutub.

Təlimlər Milli qvardiya orkestrinin ifa etdiyi Gürcüstan himni ilə başlayıb. Hərbi əməliyyatlarda və beynəlxalq missiyalarda həlak olan hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gürcüstan prezidenti Georgi Marqvelaşvili, Gürcüstanın baş naziri Georgi Kvirikaşvili, Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze, Gürcüstanın müdafiə naziri Levan İzoriya, Gürcüstan SQ Baş Qərargahının rəisi Vladimir Çaçibaya və ABŞ-ın Gürcüstandakı səfiri Yan Kelli təlimlərdə iştirak edən hərbi qulluqçulara nitqlə müraciət ediblər.

Gürcüstanda “Layiqli tərəfdaş” təlimləri artıq üçüncü dəfə keçirilir.

Müdafiə Nazirliyində bu il hərbi təlimlərin daha genişmiqyaslı olması və təlimlərdə NATO-ya üzv və tərəfdaş olan 8 ölkənin – Gürcüstan, ABŞ, Böyük Britaniya, Almaniya, Ukrayna, Ermənistan, Sloveniya və Türkiyənin iştirak etməsi barədə məlumat verilib. Təlimlərdə 2800-dən çox hərbiçinin iştirak etdiyi də qeyd olunub.

Təlimlərdə Almaniyanın “Boksyer” zirehli maşınlarının ilk dəfə iştirak etdiyi bildirilib. “Layiqli tərəfdaş 2017” təlimlərində ABŞ-a məxsus “Abrams” tankları, “Bredli” və “Strayker” PDM-ləri, habelə C-130 tipli amerikan təyyarələri də iştirak edir.

“Layiqli tərəfdaş 2017” təlimləri avqustun 12-dək Vaziani aerodromunda, Vaziani poliqonunda və Norio təlim bazasında keçiriləcək.

## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNDA İLK SINAQ QATARI HƏRƏKƏT EDİB



Bakı-Tbilisi-Qars layihəsi çərçivəsində tikilmiş yeni dəmir yolu xəttinin ilk qatarının sərnişinləri Türkiyənin nəqliyyat, gəmiçilik və rabitə naziri Ahmet Arslan və Gürcüstanın iqtisadiyyat naziri Georgi Qaxariya olublar. Qatar Qarsdan Türkiyə-Gürcüstan sərhədinədək hərəkət edib.

İqtisadiyyat və Sabit İnkişaf Nazirliyinin məlumatında iki ölkənin nazirlərindən başqa Gürcüstan, Türkiyə və Azərbaycan dəmir yollarının başçılarının da bu qatarda səfər etdikləri bildirilib.

Bakı-Tbilisi-Qars dəmir yolunun ümumi uzunluğu 826 kilometrdir. Dəhlizin illik yük ötürmə qabiliyyətinin 17 milyon ton olması planlaşdırılıb. BTQ-nin ilkin istismar mərhələsində bu göstərici bir milyon sərnişin və 6,5 milyon ton yük səviyyəsində olacaq.

Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan sahəsində ilk sınaq qatarı 2015-ci ilin yanvarında hərəkət edib. Hal-hazırda layihənin böyük hissəsi tamamlanıb və dəmir yolunun yaxın vaxtlarda istismara veriləcəyi gözlənilir.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN GÖMRÜK XİDMƏTLƏRİNİN NÖVBƏTİ GÖRÜŞÜ OLUB

Gürcüstanla sərhəddə, Azərbaycan Dövlət Gömrük Komitəsinin Tovuz gömrük idarəsinin “Sadıxlı” gömrük postunda Azərbaycan və Gürcüstan gömrük və sərhəd xidməti nümayəndələrinin görüşü keçirilib.

Verilən məlumata görə, görüşdə Azərbaycan nümayəndələrinə Azərbaycan DGK-nin sədr müavini Şahin Bağırov, Gürcüstan nümayəndə heyətinə isə Maliyyə Nazirliyinin Gəlirlər Xidməti başçısının müavini Vaxtanq Laşkaradze başçılıq edib.

Görüşdə “Sadıxlı” və “Mtkvari” sərhəd-buraxılış məntəqələrinin əsaslı şəkildə yenidən qurulması və ya yeni gömrük postlarının tikintisi və istismara verilməsi məsələsi müzakirə olunub. Tərəflər bu məsələyə dair köhnə təklifləri yenidən nəzərdən keçirərək, yeni təkliflər irəli sürüblər.

Qeyd edək ki, bütün gərəkli işlərin həyata keçirilməsindən sonra sərhəd-buraxılış məntəqələrinin potensialı artacaq, bu da özlüyündə sərnişin və yük daşınmalarının, habelə regionun tranzit imkanlarının artması üçün şərait yaradacaq.



# VERDİYİMİZ TƏRBİYƏ VƏ ONUN NƏTİCƏLƏRİ

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Biz gerçəkləri, həqiqətləri uşağımıza az qala xonçada təqdim etmək istəyirik, çox zaman onun yerinə düşünüb, onun yerinə qərar çıxarmaqdan xoşhal oluruq. Uşağımız dünyaya gözünü açandan guya onu qorumaq amacıyla biçarəni qadağanlar çəmbəri ilə əhatə edirik. "Əl vurma, acıdır", "Əl vurma, yanarsan", "Dərindir, boğulub ölərsən" deyə-deyə biz uşağımızın sərbəst düşünmək qabiliyyətini əlindən alıb, bələkdəcə boğuruq. Elə beşikdəcə körpəmizin dünyasını məhdudlaşdırıq. Onun yerinə qərarlar çıxararaq, onu dar dalana itələyirik və böyüdükcə biz ondan gözlədiyimiz nəticəni ala bilmədikdə isə "bu uşaq kimə oxşadı" və ya "niyə belə oldu" deyib haray-həşir qoparırıq.**

Şəhərlimiz də, kəndlimiz də uşağı oyuncaq kimi bəzəməkdən, onu bəzəndirib-bərtəndirib ortaya çıxarmaqdan zövq alır, uşağın torpaqla, qumla oynamasını əngəlləyib, onu dibçək gülünə çevirir. Məni bu fikrə görə, qınayanlar olacaq ki, ekologiya pozulub, daşdan-torpaqdan zəhər damır, biz uşağa bu cür oynamağı necə rəva görək kimi fikirlər səsləndirənlər olacaq. Müəyyən məqamda onlarla razılaşmaq da mümkündür. Amma biz uşağın təbii şəkildə böyüməsi qayğısına qalmalıyıq və düşünməliyik ki, bu günkü uşaq böyüyərək sabahın şəxsiyyəti olacaq. Və onun həyatın ağından, qarasından baş çıxarması tələb olunacaq, bunu edə bilmədikdə onun hansı çətinliklərlə qarşılaşacağını təxmin eləməmiz heç də çətin deyil. Belə bir şəraitdə böyütdüyümüz uşağın nə özünə, nə ailəsinə, nə də daxil olduğu cəmiyyətə bir qara qəpiklik xeyri olmayacaq. Bax, bunu unutmaq olmaz. Mənim dediyim bundan ibarətdir.

Axı bizim uşağımız başqa cür ola da bilməz. O üzdən ki, bizim uşağımız hazırın naziridi, hazır qəliblərlə yaşamağa öyrənib, həyatın ülgüsünü onun üçün özümüz cızmamışıqmı? Biz uşağı "Allahdan buyruq, ağzıma quyruq" prinsipi ilə böyütməmişikmi? Və belə olduğu halda, bizim ondan nəsə gözləməyimiz belə yersizdir. "Sən qız uşağısan otur, oturduğun yerdə", Sən oğlansan, özünü kişi kimi apar" deməklə biz onlar üçün hazır həyat yolu belirləmirikmi? "Bu, qız sənəti deyil", "bu, kişi peşəsi deyil" deməklə biz onları ürəklərinin istəklərindən uzaqlaşdırır, onları sevdikləri sənətdən perikdiririk. Əslində biz onların fikirlərinə hörmət bəsləməli, onların seçimlərini dəstəkləmək əvəzinə, onları öz əlimizlə çıxmaza soxmamalıyıq.

İndi məni bu qədər uzaqdan başlamağa vadar edən məsələ barədə fikir söyləmək imkanının yetişdiyini düşünürəm. Orasını da vurğulamaq istəyirəm ki, mən bu məsələ barədə az-çox dərəcədə bir neçə dəfə fikrimi bildirmişəm və yuxarıdakı abzasda da buna eyham elədiyimi yəqin fərq edə bildiniz. Bu dəfə də gənclərimizin ixtisas seçimləri ilə bağlı düşündüklərimi, təkrar da olsa, bir daha səsləndirmək istəyirəm. Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinin məlumatına görə, bu il ali məktəblərə qəbul üçün Vahid Milli İmtahanlarda 39 min abituriyent iştirak edib və onların da 15%-i bu imtahanlardan keçə bilməyib. Əvvəlcə keçə bilməyənlər barədə qısaca onu deyim ki, onların bir qismi "tutar qatıq, tutmaz ayran" prinsipilə imtahanlara girib, çəkmədiyi zəhmətin bəhrəsini dərmək istəyib, amma alınmayıb. Bir qismi isə təcrübəsizlikdən, digər bir qismi isə şanssızlıqdan arzularına qovuşa bilməyib. İmtahanlardan keçə bilməyənlərə bir onu demək istəyirəm ki, həyat davam edir, bir uğursuzluq sizi ruhdan salmamalı və siz arzularınızın dalınca yenə də, həm də bu dəfə daha qətiyyətlə addımlamalısınız.

Bir qədər də ali məktəblərə qəbul olunanlar barədə. Bəri başdan onları təbrik edib, uğurlar diləyirəm. Amma, bütün səmimiyyətimlə, onların əksəriyyətinin həkim və ya hüquqşünas olmasını arzulamıram. Çünki nə insanların hamısı xəstə deyil ki, yerindən qalxan özünü tibb sahəsinə verib həkim ola, nə də cəmiyyətimizin üzvlərinin əksəriyyəti oğru-quldur deyil ki, hüquqşünas olub hamını içəri damlaya. Və mən inanmıram ki, həkim olmaq istəyi təkcə insanlara sağlamlıq bəxş etmək niyyətilə bağlı olsun, nə də bütün hüquqşünas olmaq istəyənlərin hamısının bu sənəti cinayətkarlığın kökünü kəsməyə görə seçdiklərini də düşünmürəm. Mənim şəxsi qənaətimə görə, onların bir çoxu böyüklərin məsləhətilə bu sahələri seçiblər, böyüklər pullu sənətdir, əlin pulla oynayacaq və ya əlin qızıl kəsəcək deyiblər və onlar da bu yolu tutublar. Həqiqətən həkim olmaq, hüquqşünas olmaq istəyən gənclərimizə bu dediklərimin heç bir aidiyyəti yoxdur. Gələcəkdə bu məsələ ilə bağlı geniş bir yazı yazacağımı da burada qulluğunuza ərz edirəm.

**Sonda onu deyim ki, bizə hər sahənin peşəkarı lazımdır. Müdriklərimiz təsadüfən deməyiblər ki, "çörəyi ver çörəkçiyə, birini də üstəlik" və atalarımızın "qanana da qurban, qanmayana da, dad alayarımçıq əlindən" prinsipini də yadınıza salıram. Həkimin də, hüquqşünasın da, müəllimin də, mollanın da, hətta fəhlənin də peşəkarına ehtiyacımız var. Onsuz da bütün sahələrdə yarımçıqlardan, diletantlardan çox çəkmişik.**

# ÜÇ AY ƏRZİNDƏ AVROPA İTTİFAQINA 45 MİN GÜRCÜSTAN VƏTƏNDAŞI SƏFƏR EDİB

Şengen zonası ölkələrilə vizasız rejimin tətbiq olunmasından keçən üç ay yarım ərzində yeni qaydadan 45 min Gürcüstan vətəndaşı yararlanıb.

İyulun 19-da Gürcüstan xarici işlər nazirinin müavini Şalva Xutsişvili bəyan edib: "45 minədək vətəndaş vizasız rejimdən faydalanıb. "İlk dalğa" ilə yola düşənlərərin demək olar ki, hamısı üç ay müddətində geri dönüb".

Nazir müavinin məlumatına görə, 45 min nəfərdən yalnız 150 vətəndaşa getməyə icazə verilməyib. Əksər hallarda bu, gərəkli sənədləşmənin olmaması ilə bağlı baş verib.

Martın 28-dən Gürcüstan vətəndaşları Avropa İttifaqına vizasız gedərək, orada 180 gün




ərzində 90 gün qala bilərlər.

Avropa İttifaqına getmək üçün Gürcüsan vətəndaşına biometrik pasport, mehmanxana bronu və ya evində qalacağı tanışının ünvanı, tibbi sığorta, yaşamaq üçün pul və geri qayıtmaq üçün bilet lazımdır.

# ABİTURİYENTLƏRİN 15%-İ VAHİD MİLLİ İMTAHANLARDAN KEÇƏ BİLMƏYİB

Abituriyentlərin 15%-i ali təhsil müəssisələrinə daxil olmaq üçün Vahid Milli İmtahanlardan (VMİ) keçə bilməyib. Məlumatı Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinin rəhbəri Maya Miminoşvili verib.

Gürcüstanda vahid milli imtahanlar 3-26 iyulda keçirilib. İmtahanlar ölkənin 22 imtahan mərkəzində baş tutub.

Milli İmtahanlar Mərkəzi iyulun 27-də imtahanların ilk nəticələrini elan edib.

Miminoşvilinin sözlərinə görə, VMİ-ın yekun nəticələri avqustun 5-dək bəlli olacaq. Bundan sonra apellasiya vermək üçün abituriyentlərin 5 günlük vaxtı olacaq.

2017-ci ildə Vahid Milli İmtahanlarda 41,5 mindən çox abituriyent qeydiyyatdan keçsə də, onların hamısı imtahanlarda iştirak edə bilməyib. Belə ki, onların bir hissəsi buraxılış imtahanlarından keçə bilməyib. Ümumilikdə VMİ-da 39 min abituriyent iştirak edib.

VMİ-da abituriyentlər sualları elektron şəkildə alaraq, onlara yazılı cavab veriblər.

# SXİNVALİ REGİONUNDA GÜRCÜ MƏKTƏBLƏRİNİ LƏĞV EDİRLƏR

Rusiya tərəfindən işğal olunmuş Sxinvali regionunun separatçı hakimiyyəti 2017-2018-ci tədris ilindən etibarən məktəblərdə gürcü dilində təhsili qadağan etməyi planlaşdırır.

Separatçı rejimin "təhsil naziri"nin müavini Eliso Qaqloeva iyulun 26-da bəyan edib ki, cari ildə təhsil nazirliyi gürcü məktəblərinin qondarma Cənubi Osetiya Respublikasının ibtidai, ümumi təhsil standartlarına keçirilməsinə dair hazırlıq işləri görüb.

. Dəyişikliklər Axalqori rayonunda fəaliyyət göstərən altı məktəbə və Saçxero və Kareli rayonlarının hər birinin işğal olunmuş ərazilərindəki bir məktəbə şamil olunacaq.

Bundan sonra işğal olunmuş qondarma Cənubi Osetiyada yaşayan gürcü şagirdlər ana dillərini ayrıca fənn kimi öyrənəcəklər.

İyunun 9-da Axalqori rayonuna gələn separtçı rejimin "yeni seçilmiş" lideri Anatoli Bibilov bir neçə yerli məktəbdə tədrisin gürcü dilində aparılması faktından narazılıq ifadə edərək, gürcü məktəblərinin regionun ümumi standartlarına keçirilməsi barədə göstəriş verib.

İşğal olunmuş region hakimiyyətinin bu qərarı Rusiyanın digər işğal olunmuş ərazilərdə inkişaf etdirdiyi tendensiyanın tərkib hissəsidir. Abxaziyanın Qali rayonundakı gürcü məktəblərində də rusdilli tədrisə keçilib. 1992-1993-cü illər müharibəsindən sonra Qali rayonunda 31 gürcü məktəbi fəaliyyətini davam etdirirdi, son 11 gürcü məktəbi 2015-ci ilin sentyabrında Abxaz administrasiyasının qərarı ilə ləğv edilib.

# ZARA VƏ MANGO GEYİM BRENDLƏRİ GÜRCÜSTANDA FABRİK AÇMAQ NİYYƏTİNDƏDİR




Qərbi Gürcüstanın Quriya regionunda məşhur ZARA və MANGO geyim brendləri fabrik açmağı planlaşdırır. Bu barədə Quriya regionunun qubernatoru Georgi Salukvadze məlumat verib.

Onun sözlərinə görə, bu məsələyə dair danışıqlar tamamlanmaq üzrədir və yekun nəticələr yaxınlarda bəlli olacaq.

Qubernator deyib: "Layihə bir neçə mərhələdən ibarətdir, müəssisənin tikintisinə bir neçə milyon dollar sərmayəə yatırılacaq".

Gürcüstanda tikiş fabrikinin tikintisilə bir neçə böyük türk istehsalçısı da, xüsusilə də ENA Textile maraqlanır. Lakin qubernator Quriyada bu şirkətlərdən məhz hansının müəssisə yaratmaq niyyətində olduğunu dəqiqləşdirməyib.

Salukvadze vurğulayıb: "ZARA və MANGO-dan başqa fabrikdə 10 məşhur dünya brendi üçün məhsul tikiləcək. Hər iki fabrikdə 300-500 nəfər çalışacaq".

Sərmayəçilər artıq bir neçə dəfə Gürcüstanda olublar və müəssisənin tikilməsi üçün yerin seçilməsi də müzakirə edilib.

Qubernator bildirib: "Fabriklər Ozurgeti şəhərində, köhnə sovet çay fabrikinin yerində inşa olunacaq. Bu ərazi dövlət mülkiyyətindədir, əgər sərmayəçilər tikinti üçün məhz buranı seçərlərsə, onda həmin ərazi simvolik qiymətlə onlara veriləcək".

# UNİVERSİTET PREZİDENTLƏRİNİN BEYNƏLXALQ ASSOSİASİYASINA GÜRCÜ ALİM RƏHBƏRLİK EDƏCƏK



Universitet Prezidentlərinin Beynəlxalq Assosiyasının prezidenti postuna Qafqaz Universitetinin prezidenti Kaxa Şenqeliya seçilib.

Andiçmə mərasimi Vyananın Xofburq sarayında baş tutub. Mərasimdə Gürcüstan baş nazirinin müavini, təhsil və elm naziri Aleksandr Cecelava, Gürcüstanın dövlət və özəl ali məktəblərinin otuzadək nümayəndəsi və dünyanın 75 ölkəsindən gələn dörd yüzədək universitetin prezidenti iştirak edib.

Öz nitqində Kaxa Şenqeliya qarşıdakı üç il boyunca əsas məqsədinin təhsildə innovasiyaların tətbiqi edilməsi və təhsil məsələlərində BMT ilə sıx əməkdaşlıq olacağını qeyd edib.

Universitet Prezidentlərinin Beynəlxalq Assosiyası (İAUP) 1964-cü ildə təsis olunub. Assosiasiyaya 600-ə yaxın ali təhsil müəssisəsinin rəhbər üzvləri daxildirlər. Təşkilatın fəaliyyəti BMT, YUNESKO, Beynəlxalq Bank kimi təşkilatlar tərəfindən dəstəklənir.

Assosiasiyanın əsas məqsədi bütün dünyada Avropa təhsilinin unifikasiyası yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsi, akademik mübadilə və əməkdaşlığın inkişaf etdirilməsi, dünyada təhsil proseslərinin təşkilinə yardım edilməsindən ibarətdir. Əsas əhəmiyyətli məsələ bütün dünya üzrə ali təhsil müəssisələri rəhbərlərinin arasında qarşılıqlı əlaqələrin yaradılması vasitəsilə təhsil sahəsində mövcud olan mühüm problemlərin aşkarlanmasıdır.

Universitet Prezidentlərinin Beynəlxalq Assosiyası peşəkar təcrübə mübadiləsi həyata keçirilən nadir beynəlxalq platformadır.

Assosiasiyanın əməli fəaliyyəti təşkilatın İcariyyə Komitəsinin qəbul etdiyi üçillik proqramlara əsaslanır. Fəaliyyətin əsas istiqamətləri isə qloballaşma şəraitində ali təhsilin keyfiyyətinin təmin edilməsini, təhsil sahəsində innovasiya texnologiyalarının inkişaf tempinin stimullaşdırılmasını və ali təhsil müəssisələrinin sabitliyinin və müstəqilliyinin qorunması üçün vahid tədris strategiyasının işlənməsini nəzərdə tutur. Beynəlxalq prezidentlər Assosiasiyasının proqramları əsasında hazırlanan bu əsas istiqamətlərin həyata keçirilməsinə Regional Şuralar məsuldur.

Assosiasiyanın regional liderləri dünyanın müxtəlif bölgələrində müntəzəm olaraq mühüm mədəni və siyasi problemlərə dair seminarlar, konfranslar və simpoziumlar təşkil edirlər. Bu cür görüşlər beynəlxalq səviyyədə qarşılıqlı fəaliyyət prosesinin fasiləsizliyini və qarşılıqlı münasibətlərin inkişaf dinamikasını dəstəkləməyə imkan yaradır.

Universitet Prezidentləri Beynəlxalq Assosiyasının yeni prezidenti Kaxa Şenqeliya 1970-ci ildə Samtredia şəhərində doğulub. İqtisad elmləri və tarix elmləri namizədidir (Gürcüstan Texniki Universiteti), Xartvord Universiteti və İngilis dili İnstitutunun (ABŞ, ştat Konnektikut) məzunudur. 1988-1993-cü illərdə TDU-nun Ümumdünya tarixi və beynəlxalq münasibətlər fakültəsini və 1988-1992-ci illərdə Tbilisi Ali Biznes Məktəbinin maliyyə və təşkilati idarəetmə fakultəsini bitirib. RF-in Saratov şəhərində də təhsil alıb.

2004-2005-ci illərdə Gürcüstan parlamentinin üzvü, Xarici işlər üzrə Komitə sədrinin müavini, 2005-2008-ci illərdə isə təhsil, elm, idman və mədəniyyət komitəsi sədrinin müavini kimi fəaliyyət göstərib. Kaxa Şenqeliya gürcü, ingilis, fransız, türk və rus dillərini bilir. Evlidir və üç uşaq atasıdır.

Afayət AFİQ

# GÜRCÜSTAN QARA DƏNİZDƏ NEFT VƏ QAZ AXTARIŞINA BAŞLAYIR



Gürcüstan hökuməti Qara dəniz akvatoriyasında neft yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi ilə məşğul olan beynəlxalq şirkətlərlə danışıqlar aparır. Bu barədə Gürcüstan Energetika Nazirliyinə daxil olan Dövlət Neft və Qaz Agentliyi rəhbərinin müavini Qoqa Tatişvili bildirib.

Tatişvili deyib: "İlkin danışıqlar gedir, o cümlədən də Amerikanın və Avropanın qlobal oyunçuları ilə danışıqlar aparılır. Bundan sonra tender üçün lisenziya haqqında qərar qəbul ediləcək".

Məlum olduğu kimi, bir neçə il qabaq yeni neft yataqlarının aşkarlanması məqsədilə amerikan şirkəti Qara dəniz akvatoriyasının tədqiqinə başlamışdı. Lakin işlərin maya dəyəri yüksək olduğundan və lisenziyanın vaxtı bitdiyindən şirkət Gürcüstan bazarını tərk etmişdi.

Geoloji baxımdan Gürcüstanın qərb hissəsi Qara dəniz, şərq hissəsi isə Cənubi Xəzər kimi iki müxtəlif neft mənbəyinə aiddir.

Hal-hazırda ölkə ərazisində müxtəlif miqyaslı 1500-dən çox neft yatağı aşkarlanıb.

Gürcüstanda orta hesabla hər il 50 000 ton neft hasil olunur və emal olunmadan tam şəkildə ixrac edilir.

# AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ARASINDA SƏRHƏDLƏRİN DELİMİTASİYASI HƏYATA KEÇİRİLİR

Azərbaycan və Gürcüstan arasında dövlət sərhədlərinin delimitasiya məsələləri üzrə növbəti məsləhətləşmələr payızda Tbilisidə keçiriləcək.

Məsləhətləşmələrin gedişində dövlət sərhəd xəttinin keçməsi məsələlərini nəzərdən keçirmək, razılaşdırılmamış sahələr üzrə müzakirələri davam etdirmək nəzərdə tutulur.

Azərbaycan və Gürcüstan dövlət sərhədlərinin delimitasiyası üzrə danışıqları bu il başa çatdırmaq niyyətindədirlər.

# QUL İLƏ ALLAH ARASINDA OLAN BAĞ - DUA



Hacı BƏKİROĞLU
*kafkasli@mail.ru*

**Dua, insanın istək və arzularının yerinə yetirilməsi tələbidir. Dua: qul ilə Allah arasında olması lazım olan ən əhəmiyyətli bağdır. İnsanlardan bəziləri buna daim ehtiyac duyub dua və ibadətdən qopmazkən bəziləri yalnız çətində və problemli zamanlarda duanı vasitə olaraq istifadə edib Allaha yalvararlar.**

Qulunun dəvətinə qarşılıq verən uca Allah qəbul qapısını hər zaman açıq saxlamaqdadır.

Mömin surəsinin 60-cı ayəsində uca Allah; "Rəbbiniz belə dedi: Mənə dua edin, duanıza cavab verim. Mənə qulluq etməyi qürurlarına yedirə bilməyənlər alçaldılmış bir halda cəhənnəmə girəcəklər" buyuraraq qulun dua etməsi halında Allahın qəbul edəcəyini vəd etmişdir. Beləcə nə vaxt dua ediləcəyi mövzusunda hər hansı bir ayrım edilməmişdir.

Uca Allah insanı səhviylə qəbul etdiyini, duasını qəbul edəcəyini açıqlamaqla insanlara olan rəhmətini göstərməkdədir. Bu xüsus Bəqərə surəsinin 186-cı ayəsində:

"Qullarım, məni səndən soruşsalar (bilsinlər ki) həqiqətən mən (onlara çox) yaxınım. Mənə dua edincə, dua edənin duasına cavab verərəm. O halda, doğru yolu tapmaları üçün mənim dəvətimə uysunlar, mənə iman etsinlər" şəklində ifadə edilməkdədir. Bu ayədə Allahu Təalanın xüsusilə biz qullarına çox yaxın olması dilə gətirilərək bu anlayışla rəbbimizə yönəlməmiz gərəyi üzərində durulmuşdur. Bununla da qalmayıb "Dua edənin duasını qəbul edərəm" şərhiylə də insan üçün fürsətlərin davam etdiyi, qurtuluşun Allaha yönəlməkdə olduğu açıqca ifadə edilmişdir.

Bizlər dua qapılarının açıq olduğunu unutmamalıyıq. Hətta səhvimizi anlayıb Allaha yönəldiyimiz zaman ayrı bir dəyər də qazanmaqdayıq. Furqan surəsinin 77-ci ayəsində: "(Ey Məhəmməd!) De ki: Duanız olmasa Rəbbim sizə nə deyə dəyər versin.", - buyurulması da duanın əhəmiyyətini, hətta həyatın bir parçası olduğunu göstərməkdədir.

Dua həm adamın öz istək və arzularıyla həm də qarşılaşdığı hadisələrlə əlaqədar ola bilər. Hansı olursa olsun duada səmimiyyət əsasdır. Dua madam ki, yaradan Allah ilə olan yaxınlıq və münasibətdir, o, halda hər vaxt bu yaxınlıq canlı tutulmalıdır. İnsanın insana olan maraq və əlaqəsi necə yalnız ehtiyacı olduğu zaman xoş qarşılanmaz isə qulun da yalnız çətində qaldığı vəziyyətdə duaya yönəlməsi xoş bir şey olmaz. Çünki bağlılığın ən gözəl olanı daimi və içdən olanıdır. Adamı yalnız içində olduğu şərtlərin istiqamətləndirməsi halında duaya yönəlməsi insan üçün bir əskiklik olar. Halbuki insanın hər vaxt duaya ehtiyacı vardır. Yalnız məcbur olduğu zaman dua edən insanın bu davranışı xoş qarşılanmamaqdadır.

"İnsanlara bir zərər toxunduğu zaman, rəbblərinə yönələrək ona dua edərlər. Sonra Allah onlara özündən bir rəhmət daddırınca da, baxarsan ki, içlərindən bir qrup Rəbblərinə ortaq qoşarlar." (Rum, 30/33) ayəsində "İnsana bir zərər toxunduğu zaman Rəblərinə yönələrək dua edərlər." şəklindəki şərh insanların acizliyinin, çarəsizliyinin ifadəsidir. Bu acizlik və Allaha qarşı gücsüzlük halı hər vaxt var olan bir vəziyyətdir. Bu səbəbdən bu şüur və anlayışla daim dua qapısı aralanmalıdır. Əks halda Allaha qarşı səmimiyyət deyil, sanki mənfəətçilik anlayışı hakim olmaqdadır. Bizlər belə olmaması lazım olduğunu bilməli, Allahı unutmayıb həmişə bu gücü yanımızda hiss etməliyik.

Zərərin aradan qaldırılmasının Allahdan olduğu bilincinə sahib olub Allahın lütfünü unutmamalıyıq.

Əgər unudulsa axirətdə bu gerçəyin ortaya çıxacağını xatırlamalıyıq. Bütün bu izahların sonrunda acizliyimizi bilərək Allaha yaxınlıq meydana gətirən qulluq şüurumuzu və ibadət həyatımızı daim canlı tutmamız lazımdır.

İnsan Allaha qarşı böyüklənməz, qürur edə bilməz. Ondan uzaq qala bilməz. Çünki Allah yaradıcıdır, qul isə yaradılandır.

**Qul Allaha daim möhtacdır. Bu səbəblə hər vaxt Onun köməyini diləməli və istəklərini ONA təqdim etməlidir.**



## AVROPA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN SON DURUMU

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Avropa-Türkiyə münasibətləri tarixinin ən böhranlı dövrünü yaşayır. Qitənin aparıcı ölkələrinin xarici siyasətində bir antitürk ritorikası hökm sürməkdədir. Siyasi çəki baxımından alt eşalona daxil olan digər Avropa dövlətləri də „ailə başçılarının“ yanıda qərar tutublar. Münasibətlərin tarım nöqtəsinə gəlməsinin səbəbi isə Günbatan ölkələri tərəfindən Türkiyənin dövlətçilik mənafelərini hər şeydən üstün tutan Ərdoğan iqtidarını qəbullana bilməməsidir. Bir il bundan öncə dövlət çevrilişi cəhdnin fiaskoya uğramasından sonra göstərilən səbəb açıq-aşkar özünü göstərməkdədir. Ona görə də başda Almaniya olmaqla Qərb dünyası Türkiyənin indiki rejminin qeyri-demokratik yolla da olsa dəyişdirilməsi arzusundadır.**

Qeyd olunduğu kimi, bu gün Avropada anti-Türkiyə kompaniyası missiyasına Almaniya başçılıq etməkdədir. Berlin Ankaranı mətbuat işçilərinə, müxalifətə qarşı amansız davranmaqda, ümumiyyətlə Türkiyədə vəziyyətin qeyri-şəffaf olmasında və Avropa dəyərlərlərindən uzaqlaşmaqda ittiham edir. Lakin, tərəflər arasında yaranmış diplomatik mənzərəyə başqa rakursdan baxdıqda iddiaların arxasında hansı məkrli oyunların çevrildiyini sezmək çətin deyil. İnanmaq çətindir ki, terrorizmdə şübhəli bilinən bir jurnalistin Türkiyədə həbs edilməsi alman tərəfini bu qədər təşvişə salsın və buna görə də yüzillik tarixə söykənən həm siyasi, həm də iqdisadi müttəfiqi olan dövlətlə münasibətləri bütün müstəvilərdə qopma nöqtəsinə gətirmiş olsun. Məsələnin görünən tərəfi ondan ibarətdir ki, cari il 24 sentyabrda Almaniyada keçiriləcək parlamaent seçkilərində alman siyasi partiyaları Bundestaqda daha çox yer qazanmaq üçün Türkiyə faktorundan istifadə etməkdədirlər. Bu tendensiya artıq Avropada ənənə halnı almışdır. Hollandiyada keçirilən parlament seçkiləri öncəsi istər iqtidar, istərsə də müxalif partiyalar seçkiqabağı platformalarını ölkənin daxili priaritetləri üzərində qurmaqdansa, Türkiyəni tənqid atəşinə tutmaq və türk rəsmilərinin ölkəyə girişini yasaqlamaqla ucuzvari, düşük metodlara əl atmışdılar. Almaniya baş naziri Angela Merkelin də şimal qonşusunun təcrübədə sınanmış taktikasına əl atmasını geninə-boluna şərh etməyə ehtiyac da yoxdur. Avropanın çeşidli ölkələrində ultrasağ meyilli qüvvələrin fəallaşdığı bir dönəmdə alman rəsmilərinin Türkiyə əleyinə bu tip çağrışları daxili publikanı çaşdırmaq və onları manipuliyasiya etməyə hesablanmışdır.

Almaniya indiki türk iqtidarının Avropa dəyərlərindən daha çox islami dəyərlərə meyillənməsini bəhanə gətirməklə əsassız iddialar irəli sürür. İlk olaraq bu Türkiyənin bir daxili məsələsidir. Digər tərəfdən, iddianın əsasız olmasının sübut edən dəlil ondan ibarətdir ki, bəs necə olur Almaniya Türkiyədə dövlət çevrilişinə cəhddə şübhəli bilinən, Ərdoğandan daha çox islam carçısı olan Fətullah Gülənə sahib çıxır və onun yandaşlarına sığınacaq verərək ədalət məhkəməsindən gizlədir. Deməli, Avropa üçün Türkiyədə dünyəvi və ya teokratik hakimiyyətin varlığı heç də önəmli deyil, əsəs məsələ Qərbin göstərişi ilə oturub-duran, oyuncaq türk iqtidarının olmasıdır. Axı, onlar indiyədək Avropanın starateji maraqlarını nəzərə almadan Rusiya ilə ticari və ya hərbi sahədə əməkdaşlıq edən Türkiyəni görməyiblər.

**Bu arada, Türkiyə prezidenti Ərdoğanın İran körfəzi ölkələrinə rəsmi səfəri Qətər böhranının çözülməsi baxımından böyük önəm daşıyır. Qərbin diqtəsi ilə Ər-Riyad və onun müttəfiqləri tərəfindən Qətərin izolyasiya edilməsi Ankaranı narahat edən məsələdir. Şübhəsiz ki, Səudiyyə Ərəbistanının regionda və islam dünyasında hegomonluq baxımından böyük ambisiyaları vardır. Türkiyənin Yaxın Şərq bölgəsində nüfuzunun artması Səudiyyə ərəblərinin maraqlarına cavab vermir. Kənar qüvvələr tərəfindən müsəlman dövlətlərinin qarşı-qarşıya qoyulması və bir-biri ilə ədavət aparması üzücü bir faktdır. Bu baxımdan Ərdoğan səfər çərçivəsində islam ölkələrinə bəlkə də son birlik çağrışı edəcəkdir. Əksi-təqdirdə reallığı görmə və eşitmə problemləri olan ərəblərin başı çox bəlalar çəkəcəkdir.**

## ABŞ FARS KÖRFƏZİNDƏ LAZER SİLAHINI SINAQDAN KEÇİRDİ



ABŞ Hərbi-Dəniz Qüvvələri Fars körfəzində lazer silahı sistemini (Laser Weapons System) sınaqdan keçirib.

Bu barədə məlumatı CNN telekanalı yayıb.

Məlumata görə, bu, faktiki olaraq dünyada ilk işlək lazer silahıdır.

LaWS sisteminin sürəti qitələrarası ballistik raketin sürətindən 50 min dəfə artıqdır. ABŞ hərbçiləri şərti hədəf kimi pilotsuz ucan aparatı seçiblər (PUA) və lazer silahının tətbiqi nəticədə qanadı alışan PUA dənizə düşüb.

## PXENYAN QİTƏLƏRARASI RAKET YARATDI

Şimali Koreyanın ballistik raket sınaqları yenidən dünyanın gündəminə çevrilib.

Bir müddət öncə ballistik raketləri sınaqdan keçirən Pxenyan rejimi iyulun 28-də yeni sınağa imza atıb.

ABŞ Müdafiə Nazirliyi sınaqdan keçirilən ballistik raketlərin qitələrarası olduğunu açıqlayıb və bunun böyük təhlükəsini vurğulayıb.

Şimali Koreya lideri Kim Çen İn də raket sınağı barədə açıqlama verib. Kim Çen İn "Hwasong-14" tipli raketin sınağına görə sevindiyini, raketin Yapon dənizinə düşməzdən öncə 998 kilometr məsafə qət etdiyini vurğulayıb.

Şimali Koreya lideri raketlərin böyük və ağır nüvə başlıqları daşıya biləcək gücdə olduğunu və ABŞ-ı vura biləcəyini deyib. O, bu sınaqların ABŞ-a ciddi xəbərdarlıq olduğunu deyib. "ABŞ bir addım yaxınlığımızdadır", – deyə o, Vaşinqtonu təhdid edib.

Mütəxəssislər də Şimali Koreyanın ABŞ-ın Alyaska, Çikaqo, Denver kimi şəhərlərini vura biləcək potensiala sahib olduğunu qeyd edirlər.

## SURİYADA MÜHARİBƏ NƏTİCƏSİNDƏ 330 MİNDƏN ÇOX ADAM HƏLAK OLUB



Suriyada hərbi toqquşmalar nəticəsində 330 mindən çox adam ölüb.

Hüquq müdafiəçilərinin qiymətləndirməsinə əsasən, ölənlər arasında 100 minədək mülki şəxs, o cümlədən 18 mindən çox uşaq və 11,5 min qadın var.

Hərbi əməliyyatların gedişində hökumət qüvvələri 117 min hərbçi və könüllü itirib. Silahlı müxalifət, müxtəlif terror qruplaşmaların üzvləri və əcnəbi muzdlular arasında itkilərin sayı 115 min nəfər təşkil edir.

## ƏR-RİYAD POLİSİ SƏUDİYYƏ ŞAHZADƏSİNİ HƏBS EDİB

Ər-Riyad polisi Səudiyyə Ərəbistanı şahzadəsini saxlayıb. Polis kral ailəsinin üzvünü şahzadənin adamlara hücumunu əks etdirən videoçarx yayıldıqdan sonra, kral Salmanın əmrilə həbs edib.

Bir qədər əvvəl sosial şəbəkələrdə şahzadənin adamlara, o cümlədən də qadınlara hücumunu əks etdirən videoçarxlar və fotoşəkillər meydana çıxmışdı.

Yayılan məlumatda deyilir: "Kral Salman bİn Abdel Əziz Əl Saud şahzadə Saud ben Abduləziz ben Musaidin, habelə qanun pozuntusunun və səlahiyyət həddinin aşılmasını əks etdirən biabırçı videoçarxda onunla olanların təcil saxlanması və həbsxanaya salınması barədə fərman imzalayıb".

Ər-Riyad polisi 27 yaşlı şahzadəni videoyazıların meydana çıxmasından dərhal sonra yaxalayıb.

Fərmana əsasən, səlahiyyətli orqanlar şahidləri dindirərək təhqiqat aparmalıdırlar.

## İRAN PREZİDENTİNİN QARDAŞI HƏBS OLUNDU

Hüseyn Fereydun maliyyə cinayətlərində təqsirli bilinir

İran prezidenti Həsən Ruhaninin qardaşı Hüseyn Fereydun həbs olunub. "Frans Press" agentliyinin məhkəməyə istinadən yaydığı xəbərə görə, Hüseyn Fereydun maliyyə cinayətlərində təqsirli bilinir.

Hadisənin təfərrüatları hələlik açıqlanmır.

Xatırladaq ki, Həsən Fereydun 2015-ci ildə İranın nüvə proqramına dair danışıqlarda ölkənin rəsmi nümayəndəsi olub.

## RUSİYA ERMƏNİSTANA RUS DİLİNƏ RƏSMİ STATUS VERMƏYİ TƏKLİF EDİR

Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin Ermənistan hökumətinə rus dilinə qanunla rəsmi status verməyi təklif edib. Yalnız bundan sonra milli sürücülük vəsiqələrinin Rusiya ərazisində tanınacağını bildirib.

Xatırladaq ki, 2017-ci il iyunun 1-dən RF-da əcnəbi sürücülük vəsiqəsi ilə ölkənin ərazisində işləməyi qadağan edən qanun qüvvəyə minib. Rus dilinə rəsmi status verilmiş ölkələrin vətəndaşları istisna təşkil edirlər.

Bu məsələni qaldıran Ermənistan parlamentinin sədri Ara Babloyana Volodin bildirib: "Mən yalnız onu deyə bilərəm, rus dilini rəsmi olaraq təsbit edin, o zaman qanun norması avtomatik şəkildə Ermənistan Respublikasını da əhatə edəcək".

Qeyd edək ki, rus dilini rəsmi dil kimi tanıyan dövlətlər sırasına Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikstan və Moldova, eləcə də qondarma Cənubi Osetiya, Abxaziya, Dnestryanı daxildir.

# İSLAMDA İNSANIN DƏYƏRİ

**Bu yazımda tarix boyu cəmiyyətimizi, hətta bütün cəmiyyətləri üzən, narahat edən, son dövrdə daha da artan intihar hadisələrindən bəhs etmək istəyirəm.**

İntihar: İnsanın öz canına qəsd etməsi, öldürmə üsullarından biri ilə öz həyatına son verməsidir. Bütün cəmiyyətlərdə görülən bu hadisə çox təəssüf ki, son zamanlarda daha da artmaqdadır. Ürək ağrısıyla qeyd etmək lazımdır ki, ölkəmizin bəzi bölgələrində son zamanlarda bu cür hadisələr çox tez-tez baş verməktədir.

Belə hadisələrin sosioloji və psixoloji yönləri bu cür də açıqlanmaqdadır:

*Ailə içi şiddət. Xüsusilə gənc qızların istəmədikləri kəslərlə evlənmələri üçün məcbur edilməsi.

*Televiziya proqramları vasitəsiylə insanların bir şeylərə və ya bəzilərinə etina etdirilmələri.

*Qorxu və ümidsizlik.

Sözün düzü mən bu mövzuda bir qədər öncə də yazmağı düşünürdüm. Sonra fikrimdən daşındım və başqa mövzulara yönəldim. Ancaq son günlərdə eşitdiyim bir xəbər məni çox üzdü. Tanıdığım və xətrini istədiyim bir gəncin intihar xəbəri məni bu yazını yazmağa məcbur etdi.

Mütəxəssislər yuxarıda qeyd etdiyimiz maddələr üzərində araşdırmalar aparıblar və aparmaqda davam edirlər. Mən də buraya bir maddə də, yəni məcburiyyətdən edilən borc və qaytarmaqda çətinlik çəkdiyini görərək bu yola əl atanları əlavə edib mövzuya inanc və islamla əlaqəli yöndən yanaşacağam.

Ümumi mənada insan öldürmək "əkbər-ul-Kəbair", yəni böyük günahların ən böyüklərindəndir. Qurani Kərimdə "...Bir insanı haqsız yerə öldürən bütün insanları öldürmüş kimidir. bir insanı ölümdən qurtaran da bütün insanlığı qurtarmış kimidir.", - deyə buyurulmaqdadır. (Maidə 32)

Çünki insan qiymətli bir varlıqdır. Bu varlığın canını, malını və ismətini (namusunu) İslam qoruma altına almışdır və bu üç şeyinə toxunmağı haram etmişdir.

Dinimiz, insanın özünü öldürməsini, başqasını öldürməkdən daha dəhşətli və daha böyük bir günah saymışdır.

İnsanın canı özünə əmanətdir. Heç kim öz canının sahibi deyil. Özü üzərində heç kim dilədiyini etməyə səlahiyyətli də deyil. Bütün səmavi dinlərin günümüzə qədər ortaq daşıdığı xüsusiyyətlərdən biri "Nəfsi (canı) qorumaq"dır. Bu, insanoğluna yüklənən əhəmiyyətli bir məsuliyyətdir. İnanclı insanlar bu məsuliyyətin idrakı içində olduğu üçündür ki, ən ağır həyat şərtləri qarşısında da belə bir yola baş vurmamışlar, nə də vurmazlar. Çünki canını qorumaq imanın gərəyi olduğuna inanmışlar.

"İnsanlar içində ən çətin müsibətlərə məruz qalanları peyğəmbərlərdir, sonra vəlilərdir, sonra dərəcəsinə görə bunlara bənzəyənlərdir." şəklində bir həqiqət ortada olduğu halda, bu şəxslərdən heç biri bu yola müraciət etməmişdir.

Peyğəmbər (s.ə.s) zamanında belə bir yola baş vuranların da cənazələri, peyğəmbər (s.ə.s) tərəfindən qılınmamışdır.

İntiharın axirət istiqaməti: İntihar edənlər, həyatlarına son verməklə rahatlığa qovuşacaqlarını zənn edirlər, halbuki heç də belə deyil. Axirətdə təhəmmül edilməsi çox çətin cəzalara məruz qalacaqları bu hadisi şəriflərdə açıqlanmışdır:

1. Dahhakin oğlu Sabitdən, dedi ki: Rəsulullah (s.ə.s) belə buyurdu: "Kim İslam dinindən başqası ilə and içsə o, dediyi kimidir. Kim özünü bir şey ilə öldürsə, cəhənnəmdə eyni şey ilə əzab ediləcək. Mömin bir adama lənət etmək onu öldürmək kimi günahdır. Kim bir mömünə küfr isnad etsə, bu da onu öldürmək kimidir."

2. Əbu Hüreyrədən (r.ə): Rəsulullah (s.ə.s) buyurdu ki: "Kim bir təpədən özünü aşağıya atıb, öz özünü öldürsə o, əbədi olaraq Cəhənnəmdə diyirlənər. Kim zəhərli bir maddə içərək özünü öldürsə o, əbədi olaraq əlində zəhəri olacaq və davamlı cəhənnəmdə onu içəcək. Kim özünü dəmirdən bir alətlə öldürsə o, dəmir aləti əlində əbədi olaraq cəhənnəmdə onu qarınına batırıb duracaq".

Görüldüyü kimi intihar qurtuluş yolu deyil, əksinə əbədi olan axirət həyatını məhv etməkdir. Qurtuluşun yolu sıratı müstəqim deyə ifadə edilən haqq yolda getmək, başa gələn müsibətlərə qarşı səbirli və təhəmmüllü olmaqdır. Hər çətinliyin arxasında bir asanlıq, hər məğlubiyyətin arxasında bir zəfər vardır. Əgər insanlar inanaraq dayanıqlılıq göstərə bilsə…

İntiharın fiqhi hökmü: İslam alimləri, müctəhid imamlar intihar edənin cənazə namazının qılınıb, qılınmayacağı mövzusunda fərqli görüşlər irəliyə sürmüşlər. Bu fərqliliyin səbəbi də Rəsulullah (s.ə.s)-ın zamanında meydana gələn bu hadisədir:

Sümrənin oğlu Cabirdən: "Bir adam öz özünü bıcaqla öldürdü və Rəsulullah (s.ə.s) onun cənazə namazını qılmadı" . Bu rəvayətə dayanaraq bəzi müctəhid imamlar intahar edənin cənazə namazının qılına bilməyəcəyini söyləmişlər. İmam Əzəm həzrətləri başda olmaq üzrə digər üç məzhəbin imamı cənazənin qılına biləcəyini, ancaq böyük imamın, yəni dövlət idarəçisinin qıldıra bilməyəcəyi barədə fətva veriblər. Bunların dayandıqları əsas da Rəsulullahın (s.ə.s) intihar edən adamın cənazə namazını qıldırmaması, ancaq başqasının qıldırmasına da mane olmadığıdır. Yəni Peyğəmbər (s.ə.s) o adamın cənazə namazını qılmamış, ancaq başqalarına da qılmayın deməmişdir. Beləliklə bu hadisəyə reaksiya göstərilsin deyə imam özünün deyil, bir başqasının qıldırmasını məsləhət görmüşlər.

**Hər vəziyyətdə ixtilaflı bir mövzu olduğunu düşünərək, insanların belə bir yola müraciət etməkdən çəkinmələrinin lazım olduğunu söyləyərək, burada yazımı nöqtələyərkən, belə bir vəziyyətə düşənlərin yaxınlarına başsağlığımı diləyərək bütün insanları belə bir vəziyyətə düşməkdən qorumasını uca Mövladan niyaz edirəm.**

**H. BƏKİROĞLU**

# DÜNYA BANKI GÜRCÜSTANIN DÖVLƏT XƏRCLƏRİNİN TƏDQİQİNİ HƏYATA KEÇİRİB




**Dünya Bankı Gürcüstan Maliyyə Nazirliyinin xahişi ilə dövlət xərclərinin tədiqini həyata keçirib.**

**Hesabatda həm qısamüddətli, həm də uzunmüddətli perspektivdə dövlət xərclərinin yüksək olacağı qeyd olunur. İlk növbədə bu, sosial öhdəliklər və ümumi səhiyyə proqramı ilə əlaqədardır.**

**Nəzərdə tutulmuş pensiya islahatı da dövlət xərclərinin artmasını şərtləndirir, hökumət paralel olaraq infrastruktur xərclərini artırmağı da nəzərdə tutur. Bununla belə hökumət, ilk növbədə qüvvəyə minmiş "eston variantı" əsasında gəlirlərin artmasını gözləyir. "Eston variantı" təkrar sərmayə qoyulmasına istiqamətlənmiş mənfəət vergisindən azad etməyi nəzərdə tutur.**

**Buna baxmayaraq, Dünya Bankının hesabatında proqnozlar çox da nikbin deyil, xüsusilə 2018-2019-cu illərdə büdcə gəlirlərinin artmayacağı güman olunur . Belə ki, bu dövrdə "eston modeli" maliyyə biznesinə münasibətdə fəaliyyət göstərəcək. Proqnozlarına görə, "eston variantı"nın tətbiq olunması nəticəsində gəlirlərin artımını 2020-ci ildən tez gözləmək düzgün deyil.**

**Müvafiq olaraq da potensial maliyyə risklərini azaltmaq üçün elə indidən konkret tədbirlər hazırlamaq gərəkdir.Dünya Bankı ekspertlərinin fikrincə, büdcə kəsri 4%-i keçə bilər, lakin yaxın illər ərzində, artıq 2020-ci ildə 3% səviyyəsinədək enə bilər.**

**Hesabatda deyilir: "Regional perspektivlərin əvvəlki kimi aydın olmamasından çıxış etdikdə büdcə gəlirləri və xərcləri arasında balans pisləşə bilər".**

**"Eston modeli"nin tətbiqindən sonra meydana çıxan büdcə itkilərinin kompensasiyasına gəlincə, hökumətin vergilərin artırılması yolunu seçməsi əhalinin ən yoxsul təbəqəsini vuracaq.**

**Hesabatda vurğulanır: "Mənfəət vergisinin ödənilməsi sistemində baş verən dəyişikliklər varlılara xeyir gətirir, tütünün, alkoqolun və avtomobil yanacağının qiymətlərinin artması isə əhalinin ən yoxsul təbəqəsinə zərbə endirir. Bu, xüsusilə yanacağın qiymətinə aiddir, onun qiymətinin artması avtomatik olaraq bütün digər istehlak mallarının qiymət artımına gətirir".**

**Yeni vergi sisteminin effektinə gəlincə, Dünya Bankının fikrinə görə, bu Estoniyada Gürcüstandan daha yüksəkdir, çünki Gürcüstanda vergilər Estoniyaya nisbətən aşağı olduğundan fiskal risklər də böyükdür.**

**Hazırladı: Elsevər Eldaroğlu**

# GÜRCÜSTAN KEÇMİŞ SOVET ÖLKƏLƏRİ ARASINDA ORTA ƏMƏKHAQQI REYTİNQİNDƏ ALTINCIDIR

Keçmiş Sovet İttifaqı ölkələri arasında orta aylıq əməkhaqqı reytinqinə Estoniya başçılıq edir.

"Nastoyaşee vremya" telekanalı statistikaya əsasən postsovet ölkələrində əməkhaqqının səviyyəsini öyrənərək, reytinq tərtib edib. Maraqlıdır ki, keçmiş SSRİ dövlətlərində ən yüksək və ən aşağı orta aylıq əməkhaqqı arasında 10 dəfədən çox fərq var.

Reytinqin birincisi seçilmiş Estoniyada orta aylıq əməkhaqqı 1313 dollardır. Reytinqin ikinci pilləsində qərarlaşan Latviyada bu göstərici 1009, üçüncü yeri tutan Litvada isə 903 dollardır.

Regionun ən böyük və ən varlı ölkəsi sayılan Rusiya öz əhalisini orta hesabla 657 dollar əməkhaqqı ilə təmin edə bilir və bu göstəricilə o, reytinqin dördüncüsü olub.

Orta aylıq əməkhaqqı beşinci pilləni tutan Qazaxıstanda 432 dollar, reytinqin altıncısı olan Gürcüstanda isə 413 dollardır.

Reytinqin növbəti pillələrini Belarus (402 dollar), Ermənistan (397 dollar), Azərbaycan (299 dollar), Moldova (288 dollar), Qırğızıstan (204 dollar), Türkmənistan (198 dollar), Özbəkistan (177 dollar) və Tacikistan (120 dollar) tutub.

# RƏYİ SORUŞULANLARIN ƏKSƏRİYYƏTİNİN GƏLİRLƏRİ 500 LARİDƏN ARTIQ DEYİL



Amerikanın Milli Demokratiya İnstitutu Gürcüstan əhalisinin gəlir səviyyəsini müəyyənləşdirmək üçün rəy sorğusu keçirib. Belə məlum olub ki, rəyi soruşulanların əksəriyyətinin aylıq gəlirləri 500 laridən artıq deyil.

Rəy sorğusunda iştirak edənlərin 44%-i ailələrinin aylıq gəlirlərinin 500 lari, 18%-i 300 lariyədək, 11%-i isə 180 lariyə qədər olduğunu bildirib.

Rəyi soruşulanların 13%-i ailələrinin aylıq gəlirlərinin 500 laridən 800 lariyədək olduğunu bildirib. Sorğuda iştirak edənlərin yalnız 9%-nin aylıq gəlirləri 800 laridən 1500 lariyədəkdir.

Sorğu nəticəsində Gürcüstan əhalisinin 3%-inin aylıq ailə gəlirlərinin 1200 laridən 1600 lariyədək olduğu bəlli olub. Rəy sorğusu əhalinin 3%-inin aylıq gəlirlərinin 1600 laridən artıq olduğunu aşkarlayıb.

Sorğuda 2 262 nəfər iştirak edib.

# VƏTƏNƏ GÜLLƏ ATMAQ
## (transalp)

**"Güllə" demiş...**

Unudulmaz N.Nekrasovun "в кармане моем миллон" ("Cibimdə bir milyon var") misli-fəvvarə misrasını oxuyanda nə Mirzə Qələm, nə də mən buna qətiyyən inanmamışdıq. Ona görə yox ki, Nekrasov misilli şairlərin belə, cahıl cibləri çox vaxt "sökük" olurdu, bəlkə də daha artıq bu ürbənd üzdən ki, onda az qala Bağdaddan da betər gündəydik; üstəlik də qəpiyə güllə atırdıq.

...Bəzən mahiyyətlə təzahür, təsadüflə zərurət, ya da hərəkətlə sükunət arasında bir güllə mənzili boyda məsafə olur. Bir güllə mənzili – güllə atılan yerdən güllənin düşdüyü yerə qədər olan məsafə olaraq hesablanır və təbii ki, sıxılmış zaman vəziyyətində kimə görəsə üç santimetr, kimə görəsə üç kilometr filhəqiqət fərqinə gəlir. Həm də bu "bir güllə mənzili" bədii sözdə arada-sırada elə simvola çevrilir ki, arazbarı sıxıntıları Süsən-Sünbüldən Sinqapura qədər də gedib çıxa bilir.

...Doğulduğum 1957-ci ildə Nobel mükafatı laureatı Qabriela Mistral vəfat edib. Elə həmin ildə də Alber Kamyu Nobel mükafatına qovuşub.

Hazırda yaşadığımız 2017-ci illə uzaq 1957-ci il arasında olan "məsafə"ni hərdən-birdən "güllə mənzili" ilə hesaba vururam. Nədən? "Bir güllə mənzili" adlı rapsodiyada bu sufirəng sualın cavabı cəhdlərim var. Bu haqda bir ayrı vaxtda...

...1945-ci ilin payızında Alber Kamyunu ABŞ-a dəvət edirlər. Amerikan vizasını almaq üçün anket doldurmalı olan Kamyu "ABŞ prezidentinə güllə atmaq niyyətiniz yoxdur ki?" sualına təbii ki, "yox" cavabını vermişdi. İndi sərhəd keçənlərə belə ucuz suallar verilmir, amma mən oxuyanda ki, hazırda dünyada öz vətənini tərk etmək istəyən 700 milyondan çox adam var, onda unudulmaz Ənvər Məmmədxanlı demiş, "həyatım ağrıyır"...

Yeri gəlmişkən, 1997-ci ildə Bakı səfərimdə Sınıq körpüdə mənə də az qala "Kamyu anketi" sualına oxşar sual ünvanlamışdılar. Amma Kamyu hara, biz hara? Hər nə isə...

Avropa həsrəti ilə Aralıq dənizində boğulan bütün afrikalılara və suriyalılara uca Tanrıdan reyhanəli rəhmət yağışı dilədikdən sonra bunu da deməliyəm ki, indi "fiqural" Fransada yaşayan Dədə Vasif Dədə Ağasif oğlunun dəm-dəsgah dilində bir zamanlar xalq şairi Süleyman Rüstəmin bu beyət-bidət bəndi bitmişdi:

Qoy cəbhədə qurban gedim mən əsgər;
təki anam yadlara baş əyməsin.
Yağış kimi yağan odlu güllələr
mənə dəysin, vətənimə dəyməsin.

Sonralar Dədə Vasif Dədə Ağasif oğlu anasını da Fransaya götürdü. Deyilənə görə, anası Marseldə dəfn edilib, əlbəttə ki, müsəlman qəbiristanlığında, amma bir güllə mənzilindən də çox-çox uzaqlarda... Yəni – əlbəttə, Mirzə Qələmə görə – istər ananı Marseldə dəfn elə, istərsə də vətənə güllə at...

Amma Vahid Vəhdət dünyasında nələr olmur?

Bəlkə də yoxsullar küfrə yaxın yaşadıqları üçün gedib elə Fransada yaşasalar yaxşıdı? Kim bilir... Yəni oralarda vətənə qarşı gülləni gülləyə düzsələr də vətənə xətərmi yetişər?

Mətləbdən aralı düşməyək (dolayısı ilə, Aralıq dənizinə düşməyək)...

Bilmirəm Kamyunun Alp dağlarına həsr olunmuş yazısı varmı?..

..."İgid", "bahadır" mənasını verən "alp" sözü məni çoxdan çəkir; hətta şair dostum Nizami Paşa Saraclı və gənc yazıçı dostum Atif Abbasovla birlikdə bir "Alplar" jurnalı nəşr etmək istəyimiz də var.

...Ötən il Türkiyədə hərbi çevriliş – Türkiyənin ən qaranlıq gecəsi – cəhdinə görə həbs olunanlar arasında bir neçə nəfər "Alp"'ı da görəndə Alplar tərəfimiz ağrıdı. Mirzə Qələm isə hirsini açıq-aşkar boğa bilmədi:

– Ay sizi Alp Ər Tonqanın, Alp Arslanın, Alp Tarxanın, Alp Təkinin (və sairə) qılınc və qan bahasına aldıqları "alp" titulunun qalü-bəla qarğışı tutsun! – deyə hayqırdı. – Vətənə qarşı döyüşərək vətənə heç cür qəhrəman ola bilməyəcəyi həqiqətini bilə-bilə vətənə güllə atan generaldan filhəqiqət fərqli olaraq Alpların vətənə güllə atmaq haqqı yoxdur! Qətiyyən yoxdur! Çünki, eynən Alp çəmənlikləri misallı, alp

adamların başı vətənin qarlarına və buzlaqlarına dayanır!.. Padşahın tacına yox!

Mirzə Qələmi güclə sakitləşdirirəm. Özü də nə ilə? Hələ sağlığında "Qərbin vicdanı" adlandırılmış Kamyunun "Sizif əfsanəsi" ilə!..

P.S.

Dünən Türkiyədə "darbeçi" generalın (A.A.) məhkəməsini göstərirdilər...

...hələlik ancaq bizim xəyal gücümüzdə kök salan və arada-sırada xəyal qırıqlığına da uğrayan "Alplar" jurnalına gəlincə, Sınıq körpünün o biri üzünə çərən-pərən çatdırıblarmış ki, bu "Alplar"dan can Azərbaycana arazbarı xeyir gəlməz. Bu yerdə xalq yazıçısı Mirzə İbrahimov demiş, "Axırıncı söz güllə kimi Rüstəm kişinin sinəsini dəldi".

...amma, qardaşım, axı məhəbbət gülləsi də olurmuş – yenə də Mirzə Qələmə görə – və unudulmaz Mirzə Ələkbər Sabir hərdən-birdən vətənə belənçi güllələr də atırmış... Amma Sabir həm də ciyərinə nahaqdan dəyən güllələri öz qızıllanası əlləri ilə çıxarmağı da bacarırmış...

**Bütün hallarda, günlərin bir günü dünyada bircə "bir güllə mənzili" də qalmayacaq, dünyada bircə bir "gül mənzili" olacaq. İnşallah!..**

İBRAHİMXƏLİL

## ƏHALİ ÖZÜNÜN BEŞ ƏSAS PROBLEMİNİ MÜƏYYƏNLƏŞDİRİB

ABŞ-ın Milli Demokratiya İnstitutu (NDİ) Gürcüstanda ictimai rəyə dair özünün növbəti sosioloji araşdırmasının nəticələrini yayıb.

Rəy sorğusunun nəticələrinə görə ölkə miqyasında əhalini narahat edən beş əsas problem bəlli olub: iş yerləri problemi 52%; yoxsulluq 31%; ölkənin ərazi bütövlüyü məsələsi 30%; qiymət artımı 28%; tibbi xidmətin əlçatarlığı 25%.

Bununla belə araşdırmanın məlumatları əhalini daha az narahat edən məsələləri də aydınlaşdırıb: həbsxanalar və məhbuslar 1%; mətbuatın müstəqilliyi 1%; azlıqların hüquqları 0%.

Sorğu iyunun 18-dən iyulun 9-dək bütün Gürcüstan ərazisində (Abxaziya və Osetiya istisna olmaqla) 2261 fərdi müsahibə əasında həyata keçirilib. NDİ üçün sorğunu gürcü şirkəti CRRS həyata keçirib. Sorğu məlumatlarının xətası +/- 2,2% təşkil edir.

## YÜKSƏK DAĞLIQ MƏSKƏNLƏR SİYAHISINA 37 KƏND ƏLAVƏ OLUNDU



Gürcüstanın yüksək dağlıq məskənlərinin siyahısına 37 kənd əlavə olunub. Bu barədə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili iyulun 21-də hökumətin iclasında məlumat verib.

Baş nazir izah edib ki, bu, pedaqoqların, həkimlərin, təqaüdçülərin və sosial cəhətdən təmin edilməyən şəxslərin əlavə güzəştlər alması deməkdir. Bu qanuna görə, əlavə güzəştlərdən şirkətlər də yararlanacaqlar, onlar bir çox vergilərdən azad olunurlar.

Kvirikaşvili vurğulayıb: "250 şirkətin artıq 2016-cı il yanvarın 1-dən bu güzəştlərdən istifadə etməsi çox mühümdür və düşünürəm ki, bu qanun dağlıq regionlarımızda həyat səviyyəsini təkcə əhalinin orada möhkəmlənməsi baxımından dəyişməyəcək. Düşünürəm ki, çoxları qayıdacaq və artıq nəzərə çarpan bu meyl məni sevindirir və bu meyl, yəqin davam edəcək".

## QAZ TARİFİNİN DƏYİŞMƏSİ MÜXTƏLİF FAKTORLARDAN ASILI OLACAQ



Qaz tariflərinin yenidən dəyişməsinin mümkünlüyü barədə suala cavab verən Gürcüstanın energetika naziri İlya Eloşvili qaz tariflərinin mütləq nəzərdən keçiriləcəyini, lakin tariflərin artması və ya azalması barədə danışmağın hazırda mümkün olmadığını bəyan edib.

İlya Eloşvilinin sözlərinə görə, qaz tariflərinin dəyişməsi müxtəlif faktorlardan, habelə tariflərin hesablanması metodologiyasından asılıdır.

Energetika naziri qeyd edib: "Tariflərin dəyişməsini əsasən 2007-ci ildən bu günədək yatırılan sərmayələr şərtləndirir. Ona görə ki, 2007-ci ildən qaz tarifinə faktiki olaraq baxılmayıb, müvafiq olaraq abunəçilərin sayı iki dəfə artıb, bu sahəhə böyük sərmayələr yatırılıb, şərait dəyişib, larinin kursu da dəyişib. Bütün bunlar tarifin dəyişməsinə təsir edib".

## 2018-Cİ İLDƏN BİR ÇOX MƏHKUMLAR EV DUSTAĞI OLACAQLAR



2018-ci ildən bir çox məhkumlara qarşı alternativ cəza tədbiri – ev həbsi tətbiq olunacaq. Ev həbsində olan məhkumlara Cəzaların İcrası və Probasiya Məsələləri üzrə Nazirliyin Monitorinq Mərkəzindən elektron qolbaqlar vasitəsilə nəzarət ediləcək.

Gürcüstanda ev həbsi 2016-cı ildən qanunişəşdirilsə də, məhkumlara nəzarət imkanının yoxluğu səbəbindən bu cəza növü praktiki olaraq tətbiq olunmayıb. Nadir hallarda yetkinlik yaşına çatmamışlara ev həbsi verilib.

Ev həbsini tətbiq etmək və onun müddətini müəyyənləşdirmək məhkəmənin səlahiyyətində olacaq. Məhkum daim elektron qolbaq bağlamalıdır.

Qolbaq məhkumun giriş və çıxışını qeydə alacaq, onun vaxt cədvəlinə əməl edib-etməməsinə və ya qurğunu zədələməsinə nəzarət edəcək.

Qolbaq zədələndikdə və ya çıxarıldıqda Monitorinq Mərkəzinə müvafiq məlumat daxil olacaq.

Yeni cəza növü cüzi və kiçik cinayətlər törədən əvvəllər məhkum olunmamış vətəndaşlara şamil olunacaq. Qanuna əsasən, ev həbsi altı aydan iki ilədək ola bilər.

# MİRVARİNİ QAÇIRANLAR

## Akaki Qelovani

*(əvvəli ötən sayımızda)*

**1854-cü ildə Bavariya kralı II Maksimilian iki il bundan əvvəl münhenli şairlərin başçısı Emmanuel Qaybeli dəvət etdiyi kimi, artıq ad-san qazanmış şair və tərcüməçini Münhenə dəvət etmişdir. Bundan sonra tam on iki il ərzində Bodenştedt Münhen universitetində slavyan və qədim ingilis ədəbiyyatını öyrədir.**

1866-cı ildə Mayninq hersoqu onu teatr direktoru olaraq dəvət edir və sonrakı ildə ona knyaz adı verir. 1877-ci ildən fon Bodenştedt artıq Almaniyadadır. 1880-ci ildə isə Amerikada, nəhayət, Visbadendə məskunlaşır.



1850-ci ildə "Min bir gün"ün ikicildliyi nəşr olunur, sonra Lermontovun ikicildliyi, Turgenevin ikicildliyi və "Mirzə Şəfi nəğmələri", özünün "Doğma və yad", "Şərqdən və Qərbdən" şeirləri, Hafiz və Ömər Xəyyamın əla tərcümələri, "Ləzgi qadını Ada", "Uzaq ölkədən kiçik xəbərlər", "Dimitri" faciəsi, "Kral Aytarın toy səyahəti", " İmperator Pavel", "Aleksandr Korintoda", Şekspirin doqquz cildlik tərcüməsi, "Şekspirin qadın obrazları", Puşkinin üç cilddə seçilmiş əsərləri, iki cilddə "Rus fraqmentləri", "Mənim həyatımdan", "Atlantik okeanından Sakit okeanına qədər" romanlar, hekayələr... nəşr edilir. Belə nadir məhsuldarlığa baxmayaraq, geniş yazışmalara, mühazirələr oxumağa və "Gündəlik icmal üçün"qəzetinə rəhbərlik etməyə imkan tapır. Populyar şair Visbadendə dünyasını dəyişib, elə orada da heykəli qoyulmuşdur.

Bodenştedtin həyat xronikası belədir. Bizi bu xronikanın Gürcüstanla əlaqədar olan ən ətirli və rəngli səhifəsi maraqlandırır. Bu, özünün Qafqazda olmasını poetik dumana bürümək üçün kifayət qədər fantaziyası, Avropanı Şərq müdrikliyinin mirvariləri ilə tanış etməyə kifayət qədər qabiliyyəti olan və bu mirvariləri mənimsəyərək yolundan azmaq üçün kifayət qədər qaba hərəkət edən, ad qazanan və adını da batıran alman şairinin "Min bir gün"ü idi.

Tbilisidə, Qərbin və Şərqin bir yerə cəmləşdiyi şairlər iqaməgahında özünün həqiqi çağırışını gördü. Bu gözəl təbiətin qoynunda məskunlaşdı və elə bir zirvəyə qədər yüksəldi ki, buna öz vətənində heç bir zaman yaxınlaşa bilməzdi. Demək mümkündür ki, Bodenştedt Hanoverdə anadan olub, ölməzliyini isə Tiflisdə qazanıb. Burada onun azacıq işartı verən qığılcımı alovlanmışdır.

Tiflisdə olan şair gürcü dilini öyrənməyə başlayır, həmin vaxtlar gəncəli müdrik tatar dili (Azərbaycan) müəllimi tutur. Tiflisdə məskunlaşan Mirzə Şəfini – yaraşıqlı, boy-buxunlu, xoş həmsöhbət, təmənnasız insanı. O, gözəl xəttlə gözəl şeirlər yazırdı, daha çox isə nəğmələr söyləyirdi və bülbül dünən nə oxuduğunu axtarmadığı kimi əlyazmalarının, nəğmələrinin taleyini düşünmürdü.

Bodenştedt burada öz yerini tapdı.

Məşğulluq dostluğa çevrildi, dostluq ölməzliyə. Hər ikisi üçün Xoşbəxt ulduz üzərində seçim oldu. Bodenştedtin Höte istedadı yox idi, lakin Hötenin anlayışını yerinə yetirirdi – Şairin ölkəsinə getdi, onun dilini öyrəndi. Mirzə Şəfi ona diqqətəlayiq hadisələr nəql edirdi, Hafizin, Füzulinin, Xəyyamın şeirlərini, öz şeirlərini mahnı üzərində oxuyurdu. Bax, onun bu şeirləri qanadlara çevrilərək hər ikisini bütün Avropanı dolandırdı, Bodenştedtsə tranplin olub, müəllimini layiq olduğu yüksəkliyə qaldırdı.

Bodenştedt qoşunların paradında iştirak edib; krallar və hersoqlar onu hörmətlə qəbul ediblər. 1848-ci il inqilabının döyünən ürəyi Vyanada mübarizə anına düşüb, Viktor Hüqonun sədrlik etdiyi Paris sülh konqresinin üzvü olub... Abidəsini isə Tiflis qoyub.

***

Bodenştedt və Mirzə Şəfi məsələsinin mühakiməsinə keşməmişdən öncə alman şairin bir növ "Min bir gün"ü dolduran əsərlərə uyğun olaraq Gürcüstan və gürcü xalqı barədə fikirlərinin gedişini gözdən keçirmək istəyirik.

Gürcüstan tarixini Bodenştedt dağıntı və bərpanın epopeyası kimi təsvir edir. Dağıdıcı, yabanı qüvvə millətin mədəniyyətinə, ədəbiyyatına, memarlığına, irəliləyişinə əngəllər törədirdi, lakin dərinə işləmiş xristianlığın kökləri və çiçəklənmiş mədəniyyət divar olaraq qalırdı, bunu da Avropanı dağıtmaq üçün hərəkətə gələn kobud ordular dalğası qırıq-qırıq edirdi...

Bodenştedt xilas olan xalqın işinə heyran qalıb.

Bodenştedt Gürcüstanı Brosse, Baqrationi, Dyubua və b. əsərlərinə uyğun olaraq tanıyıb, öz müşahidəsi ilə zənginləşdirir. Odur ki, onun qeydlərinə bir növ məna verilir. Aydındır ki, bu, yalnız tarixdir. Lakin heç bir zaman tarixin kifayət qədər faktları olmur və kolleksiyaçı kimi həddindən artıq zənginliyi olsa da, nəyisə axtarır.

Bir çox müəllifin bir əsr bundan əvvəl məhz elə Bodenştedtin qeyd etdiyi barədə düzgün təsəvvürü yoxdur. Elə götürək, gürcülərin soy-tayfa məsələsini. Bodenştedt tayfaları ayırd edir: gürcüləri, imeretililəri, quriyalıları və svanları, heç bir guşəni unutmur və belə bir nəticə çıxardır: "Bütün bunlar bir tayfanın şaxələridir, başqaları ilə birlikdə böyük bir dövlətin bədənini təşkil edir, başında isə Gürcüstan durur. Hamısı lap başdan vahid ana dilində, iber dil qrupuna daxil olan və Gürcüstanın çiçəklənməsi zamanı Qara dənizdən Xəzər dənizinə qədər, Terekdən Ararata qədər hökmranlıq edən gürcü dilində danışırdılar ("Qafqaz xalqları...").

Böyük Vinkelman (Alman sənətşünası, antik incəsənət tədqiqatçısı, arxeologiya elminin banilərindən biri Yohann İoaxim Vinkelman – tərc.) və bir çox başqa fərqli avropalı kimi Bodenştedt də gürcülərin gözəlliyi və ləyaqətləri barədə yüksək fikirdədir: "Mübahisəsiz, gürcü xalqı yer üzərində məskunlaşan xalqlar arasında ən gözəl xalqlardan biridir. Hündür, boy-buxunlu, canı bərk kişilərə və düz, əksər hallarda iri, gözəl gözləri olan qəşəng, sərv boylu qadınlara burada addımbaşı rast gələrsiniz. Yer üzərində gürcü kişiləri kimi gözəl və nəcib xalq yoxdur. Qonaqpərvərdirlər, qafqazlılar kimi, onların qılıncı kimi etibarlı, onların kəhər atları kimi mərd və cəlddirlər, döyüş meydanında igid və öz ailələrində qayğıkeşdirlər... Digər şəhərlərə nisbətən burada libas və geyinib-kecinmək daha zəngin və səliqəlidir".

Bodenştedt mədəniyyəti xalq ləyaqətinin ölçüsü hesab edir. Gürcü xalqının mədəniyyəti vardır, bu insanı nəcibləşdirir.

Şair-səyyah meqrellərin, quriyalıların və istərsə də svanların təsviri üzərində kifayət qədər geniş şəkildə dayanır. Meqreliyanın knyazı David Dadianinin boy-buxununu, görünüşünü, təmkinini bəyənib, camaatı isə itaətkardır və "Ayetin polad biləkli törəmələri susurlar". Quriyalıları mühüm gürcü tayfası kimi "hər cür tərifəlayiq" hesab edib, sərv boylu qadınları, öz alovlu gözləri, sıx saçları və alicənab üz quruluşu ilə təsvir edir.

Svanların adını ənənəvi "savane" iqamətgah sözü ilə izah edir, onların əcdadı kimi Osetiya və Qarabağ yolu ilə İnqurinin mənbəyinə gələn və orada məskunlaşan, burada ümidverici iqamətgah tapan gürcü çarı Parnavazın oğlu Surmaxı hesab edir. Şair söyləyir ki, svanları gözəlliklərinə və mərdliklərinə görə yalnız çərkəzlər ilə müqayisə edirlər. Onların təsərrüfatı, Dadeşkelianilərin hökmranlığı, igidlikləri, rəqsləri, mahnıları, qadın ləyaqəti uğrunda meydanda mətinliklə mübarizəsi, möhkəm qüllələri, müqəddəs andı, böyük ailələri, "gürcü semiramidası" – çar Tamar tərəfindən inşa olunan gözəl kilsələri barədə uzun-uzadı danışır.

*Gürcücədən tərcümə edəni: Mirzə MƏMMƏDOĞLU*

*(ardı var)*

# GİYA PAÇXATAŞVİLİ – DƏRVİŞ KÖNÜLLÜ ŞAİR



Qiya Azərbaycanın dilbər guşələrindən birində – Qax rayonunda dünyaya göz açıb. Qiya ağ adamdı –albinosdu. Bu üzdən də gözləri zəif görür. Amma, o, bu fiziki qüsuruna baxmayaraq, dünyaya bəsirət gözü ilə baxa bilən dərviş könüllü, ozan ruhlu şairdir. Bunu dostumuzun təqdim etdiyimiz şeirləri də təsdiqləyir. Qiya üçdilli şairdir. Azərbaycan, gürcü və rus dillərində şeirlər yazır, həm də bu dillərdə yazılan şeirlərin hər üç dilə tərcüməsi ilə məşğuldur. Gürcü ədəbi camiyəsindən daha çox, Azərbaycan ədəbi ictimaiyyəti arasında, o cümlədən də Gürcüstan türkləri arasında məşhurdur. Qiya ilə bircə dəfə təmasda olmaq kifayətdir ki, onun dostuna çevriləsən və Qiyanın dostluqda qayımlığına – sadiqliyinə şübhə etməyəsən. Və heç də təsadüfi deyil ki, Qiya Borçalını el-el, oymaq-oymaq gəzib və bunu şeirlərində də əks etdirməyi unutmayıb. Qısası, Giya Paçxataşvili dost adamdır, könül adamıdır, söz adamıdır.

A.Muxtaroğlu

**"HƏ" DEDİM**

*(Xatirəyə)*

Şəkidən başlanan sevgiyə,
Qəlbimə tuşlanan sevgiyə,
Qız kimi utanan sevgiyə
"Hə" dedim.

Ləhçəsi bal dadan sevgiyə,
Hissləri oyadan sevgiyə,
Kədəri aldadan sevgiyə
"Hə" dedim.

Şeiri yazan sevgiyə,
Dərviş, ozan sevgiyə,
"Yox"ları pozan sevgiyə
"Hə" dedim...
"Hə" dedim...
"Hə" dedim!

**ÖLÜMÜN ÖLÜMÜ**

Dirçələn sevginin nurundan
Ölümsüz ölüm ölürdü...
Və onun üstünə
Əbədi həyatın
Tül pərdəsi örtülürdü.

Dodaqların,
yanaqların alovu
Dəfn edirdi onu...
Beləcə çatdı
"Ölüm" adlı filmin sonu.

**QORXMURAM**

İstəmirəm yazda ölüm...
Sevənlərin əllərində
güllər inciyə bilər.

İstəmirəm yayda ölüm...
Bürküdən susamış
dillər inciyə bilər.

İstəmirəm payızda ölüm...
Xəzələ bələnmiş
çöllər inciyə bilər.

İstəmirəm qışda ölüm...
Cənazəmi üçüyə-üşüyə aparan
ellər inciyə bilər.

Ölümdən qorxmuram əslində...
Qoy Tanrı aparsın məni
əbədilik fəslində.

***

Sökülən dan
Danaya, quzuya dönüb
Mələyirdi...
Qəssablardan aman diləyirdi.
Həyat ölüm tərəfindən basılırdı,
Pula çevriləcək cəmdəklər
İlgək adlı
Dar agacından asılırdı...
Sökülürdü dan...
Bıçaqlar qan deyirdi, Qan,Qan!
Qan sıçramışdı havaya
Pul ölümlə davaya çıxmışdı,
Davaya!

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 iyul 2017-ci il
№014 (52)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## BİR GÜNDƏ İKİ KİTABIN TƏQDİMATI BAŞ TUTDU



İyulun 24-də Tbilisidə M.F.Axundov adına Azərbaycan Mədəniyyət Mərkəzində “Azərbaycan-Gürcüstan dostluğu günləri” layihəsi çərçivəsində Azərbaycan Milli Məclisinin deputatı, akademik Nizami Cəfərovun gürcü dilində nəşr olunmuş “Azərbaycan xalqının tarixi bioqrafiyası” və jurnalist, şair Dəyanət Osmanlının tərtib etdiyi “Azərbaycan-Gürcüstan: Dostluğun inkişaf yolu” kitablarının təqdimatı keçirilib.

Təqdimat mərasimində Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin rəhbəri Rafiq Hümmət, Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev, azərbaycanlı və gürcü ziyalılar iştirak ediblər.

Mərasimdə çıxış edən Nizami Cəfərov deyib ki, “Azərbaycan xalqının tarixi bioqrafiyası” bu vaxta qədər rus, ingilis və ərəb dillərinə tərcümə olunub. O, deyib: “Kitabın həcminin kiçik olmasına baxmayaraq, bu, ən ağır yazdığım kitabdır. Kitabda Azərbaycan xalqının yaranmasından bu günə qədər keçdiyi inkişaf yolunun qısa tarixçəsi yer alıb”.

D. Osmanlı isə çıxışında deyib: “Azərbaycan-Gürcüstan: Dostluğun inkişaf yolu” kitabı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə işıq üzü görüb. Onun sözlərinə görə, kitabda Azərbaycan-Gürcüstan münasibətlərinə aid azərbaycanlı və gürcü müəlliflərin müxtəlif səpgili yazıları toplanıb.

Təqdimat mərasimində Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev, yazıçı tərcüməçi Mirzə Məmmədoğlu, Azərbaycan Yazıçılar Birliyinin müşaviri, yazıçı Elçin Hüseynbəyli də çıxış ediblər.

## SOYDAŞIMIZ QIRĞIZISTANDA PREZİDENTLİYƏ NAMİZƏD OLDU

Soydaşımız Qırğızıstan Respublikasının Prezidenti vəzifəsinə namizədliyini irəli sürüb.Bu barədə məlumatı namizədin özü – Nüsrət Məmmədov verib.

Qırğızıstan Respublikasının Mərkəzi Seçki Komissiyası Prezidentlik vəzifəsinə Qırğızıstan vətəndaşı Nüsrət Musa oğlu Məmmədovun namizədliyini qəbul edib.

N. Məmmədov 1957-ci ildə doğulub və Qırğızıstan vətəndaşıdır. N.Məmmədov Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fonduna rəhbərlik edir.



## ƏBƏDİ İŞLƏYƏN ELEKTRİK VELOSİPEDİ YARADILIB

Amerikalı alimlər 10 ildən artıq üzərində çalışdıqları fasiləsiz işləyən elektrik velosipedi yaradıblar.

Yeni nəqliyyat vasitəsi radio dalğalar hesabına çalışır və 30 km/saat sürətlə hərəkət edə bilir.

Elektrik velosipedinin yaradıcıları onu sınaqlar zamanı nümayiş etdiriblər. Bu qeyri-adi texnika geniş diapazonlu radiodalğalar hesabına işləyir. İxtiraçılar qeyd ediblər ki, belə velosiped əbədi olaraq hərəkət edəcək. Ona görə ki, bütün dünyada elektronikanın sayı ildən-ilə artır.

Mühərrik və elektrik enerjisi generatorunun işi hesabına mütəxəssislər tam kinetik enerjini əldə edə biliblər. Generator qabaq təkərin vtulkasının daxilində yerləşir. Bimetal rama məhz bu radiodalğaları qəbul edir. Belə konsepsiya gələcək təhlillərə və geniş miqyaslı satışlara yönəlib.

## BALLI SARIMSAĞIN FAYDALARI

Xərçəngə qarşı yaxşı təsir göstərir, eyni zamanda xərçəngə yol açan xəstəliklərə də müsbət təsir edir.

Sarımsaqlı bal siqaretin yaratdığı mənfi təsirləri azaldır, sağlam qaraciyəri, düzgün qan dövranını və qan axınını dəstəkləyir, orqanizmdə toplanan toksinləri də xaric edir.

Pis xolesterin səviyyəsini aşağı salmağa və immuniteti gücləndirməyə kömək edir.

Böyrək daşını müalicə edir, böyrək və öd daşlarını salır və əridir. Orqanizmdə toplanan artıq maddələri aradan qaldırır.

Revmatik ağrıları müalicə edir, revmatizm ağrılarının və iltihabının qarşısını alıb, aradan qaldırır. Duzlaşmaya qarşı yaxşı təsir göstərir və oynaq səviyyələrinin yenilənməsi üçün də faydalıdır.

Ballı sarımsaq necə hazırlanır?

2-3 diş sarımsağı xırda doğrayın. Bir qaşıq bal ilə qarışdırın.

Bu qarışığı hər gün istifadə edin. Bir həftə ərzində enerjinizin artdığını, sağlamlığınızın yaxşı istiqamətdə getdiyini hiss edəcəksiniz.

## AZƏRBAYCAN YAZIÇILARININ ƏSƏRLƏRİ GÜRCÜ DİLİNDƏ NƏŞR OLUNUB

Azərbaycan yazıçılarının əsərlərindən ibarət ədəbi toplu Gürcüstanda nəşr olunub.

“Müasir Azərbaycan nəsr antologiyası” adlı toplu Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi tərəfindən hazırlanıb.

Kitabda XX əsrdə yaşayıb-yaratmış Azərbaycan yazıçılarının hekayələri toplanıb. Hekayələri gürcü dilinə Gürcüstan Dövlət mükafatı laureatı yazıçı-tərcüməçi İmir Məmmədli tərcümə edib. “İntellekti” nəşriyyatında çap olunmuş toplunun redaktoru tərcüməçi Manana Bostoqanaşvili, kitaba yazılmış ön sözün müəllifi isə görkəmli gürcü yazıçısı Quram Odişariyadır.

Kitabın Tiflisdə təqdimatı cari ilin sentyabr-oktyabr aylarında həyata keçiriləcək.

## ƏN UCABOYLU İNSANLAR AVROPADA YAŞAYIRLAR



Tədqiqatçılar dünyadakı 18 milyondan çox insanın boy ölçülərini araşdırıblar. Tədqiqatın nəticələri maraqlı faktlar ortaya çıxarıb.

Alman kişilərinin boyu orta hesabla 179,9 santimetr olmaqla dünyanın ən uzunboyluları arasında 11-ci yerdədirlər. Alman qadınlar 165,9 santimetrlik göstəricilə 14-cü yeri tuturlar. Bunu London İmperial Kollecinin alimləri dünyanın bütün qitələrindən olan 18,6 milyon iştirakçının boy ölçülərinə əsasən müəyyənləşdiriblər.

Ən uzunboylu insanlar 182,5 santimetr boyu olan niderlandlılardır. Qadınlar arasında isə siyahıya 170 santimetrlik boyu ilə latviyalı qadınlar başçılıq edirlər.

Ən ucaboylu insanlar Niderland, Belçika, Estoniya, Latviya, Danimarka və Çexiya kimi Avropa ölkələrində yaşayırlar. Ən qısaboylular isə Cənub-Şərqi Asiya, Afrika, Mərkəzi və Cənubi Amerika sakinləridir.

London İmperial Kollecinin əməkdaşı Məcid Ezzatinin sözlərinə görə, bu araşdırma son yüz il ərzində millətlərin sağlamlığı barədə məlumatı da aşkara çıxarır. Çünki bir insanın boyunun uzunluğu uşaq ikən onun yaxşı qidalanmasından və anasının hamiləlik zamanı sağlamlıq vəziyyətindən asılıdır. M.Ezzatinin fikrincə, uşaqların həyata yaxşı başlamaları üçün, onların qidalanması yaxşılaşdırılmalıdır.

## ÇİNDƏ HİDROGENLƏ İŞLƏYƏN TRAMVAY YARADILDI



Çin mütəxəssisləri daha bir ilkə imza atıblar. Belə ki, Çində hidrogen batareyaları ilə işləyən ilk yerüstü tramvay yaradılıb. Hidrogen batareyaları ilə çalışan tramvayın enerji ilə yüklənməsi üçün üç dəqiqə kifayətdir. Doldurulmuş batareyalar 100 kilometr məsafəni qət etməyə imkan verir. Tramvayın maksimum sürəti saatda 70 kilometrdir.

Tramvay üç vaqondan ibarətdir. Eyni vaxtda 400-ə yaxın sərnişin daşıya bilir. Döşəməsi yerə yaxın olan tramvay üçün platforma tikməyə ehtiyac yoxdur. Belə ki, tramvayın döşəməsi relsdən cəmi 37,8 santimetr yuxarıdadır. Tramvay artıq istismara verilib.

Xatırladaq ki, bir çox ölkələrdə mütəxəssislər hidrogenlə işləyən ictimai nəqliyyatın layihəsi üzərində çalışırlar. İtaliyanın Venesiya şəhərində yanacağın bu növü ilə işləyən çay tramvayları – “vaporetto”lar hazırlamağı düşünürlər. Habelə almanlar hidrogenlə çalışan hibrid tramvay və avtobusun layihəsi üzərində işləyirlər. Alman mütəxəssisləri yeni nəqliyyatın sürətini saatda 60 kilometrə yüksəltməyi, enerji ilə yüklənmə qurğusunu isə onun damında yerləşdirməyi nəzərdə tuturlar.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 595 92 25 70
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.